*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 326-330*

https://doi.org/10.62837/2025.4.326

**LALƏ MİRZƏYEVA**
***Azərbaycan Dillər Universiteti***
***Rəşid Behbudov, 134***
***lalamirzayeva@ yahoo.com***

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏNQİDİ VƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

## XÜLASƏ

Müasir cəmiyyət qloballaşma prosesi keçir. Qloballaşma prosesindən doğan dəyişikliklərə dərhal münasibət bildirmək, qeyri-standart həllər tapmaq, yeni və orijinal ideyalar istehsal etmək müasir zamanın başlıca tələbidir. Cəmiyyətə eyni problemin müxtəlif həll yolları, məsələnin həllində fərqli yanaşmalar, tipik situasiyalara qarşı yeni davranış üsulları lazımdır. Bugün istənilən sahədə yaradıcılığa və yaradıcı bacarıqlara ehtiyac var. Yaradıcı təfəkkür sosial-iqtisadi sistemdə: elmi kəşflərdə, texniki ixtiralarda, incəsənət əsərlərinin yaradılmasında, insanlarla münasibətdə və dövlətin idarəedilməsində müxtəlif formalarda təzahür edir. Yaradıcı düşünmə təfəkkürün ele bir mərhələsidir ki, onun nəticəsində ya tamamilə yeni bir şey kəşf edilir ya da bu və ya digər problemin mükəmməl həllinə nail olunur.

Tənqidi düşüncə isə təklif olunan həll yollarının müəyyən sahələrdə tətbiq edilib-edilməyəcəyinin araşdırılmasıdır. Yaradıcı düşüncə yeni ideyaların tapılması üçündür, tənqidi düşüncə isə onların qüsur və nöqsanlarını təyin etmək üçündür.

Məsələnin mümkün və effektiv həll yollarını tapmaq üçün təfəkkürün hər iki növü vacibdir, lakin onlar eyni vaxtda deyil ardıcıl olaraq istifadə olunmalıdır.

Yaradıcı prosesdə kreativ düşüncə yeni və orijinal ideyaları yaratmaq üçün, tənqidi düşüncə isə bu ideyaları qiymətləndirib nəticəyə gəlmək üçün lazımdır. Buna görə təfəkkürün hər iki növü bir-biriylə qarşılıqlı asılıdırlar. Tənqidi təfəkkürlə müqayisədə yaradıcı təfəkkür daha emosional, intuitiv, yaradıcı və vizualdır. Kreativ düşünmə daha çox risk ehtiva etdiyi üçün prosesdə yanılma və səhv etmə halları da çox ola bilər. Daha təsirli və faydalı nəticələr almaq üçün kreativ düşüncə tənqidi düşüncə ilə tamamlanmalıdır.

**Açar sözlər:** ingilis dili tədrisi, yaradıcı təfəkkür, tənqidi təfəkkür,analitik düşüncə, problemlərin həlli bacarığı

Tənqidi təfəkkür termini elə bir anlayışdır ki, müxtəlif elmi araşdırmalarda ona fərqli izahlar gətirilir. Tənqidi düşünmə məsələyə tənqidi və ya neqativ yanaşma deyil, məsələni dərindən təhlil etmək, mühakimə etmək, məsələyə müxtəlif aspektlərdən baxıb onu dəyərləndirmək və düzgün nəticəyə gəlməkdir. Bu anlayış özündə həmçinin məntiq, çeviklik, sayıqlıq, yüksək dünyagörüşü, hadisələrə cəld reaksiya, dəqiqlik və ədalətli yanaşma kimi xüsusiyyətləri də ehtiva edir. Tənqidi

düşünə bilən insan məsələni qiymətləndirmə, onu müxtəlif prizmalardan dəyərləndirmə, vəziyyəti tam olaraq qəbul etmə və əsaslı faktlar və arqumentlər əsasında nəticəyə gəlmə bacarıqlarına nail olmalıdır. Buna görə də bəzən bu termin "məntiqi" və ya "analitik" təfəkkür də adlanır. Tənqidi təfəkkürün ən ilkin mərhələsi informasiya qəbuludur. Düşünmənin sonrakı mərhələlərinin də uğurlu olması üçün, əvvəlki bilik bazası da dövriyyəyə girir ki, bu ən vacib faktordur. Buradan belə qənaətə gələ bilərik ki, tənqidi düşünmənin inkişafında insanın sosial həyatının böyük rolu var.

Tənqidi düşünmə sualın qoyulmasından, problemin təyin olunmasından və onun həll yolunun axtarılmasından ibarətdir.

Məntiqi yanaşmanın ön plana çıxdığı bütün sahələr kimi təhsil müəssisələrində də əsas məqsəd təhsilalanlara düşünməni öyrətmək olmalıdır.

Tənqidi düşünmə texnologiyasının mənimsənilməsi şagirdə aşağıdakı xüsusiyyətləri bəxş edir:

- informasiyanı qəbul etmə bacarığının artması
- öyrədilən materialdan başqa tədris prosesinin özünün maraqlı olması;
- tənqidi düşünmə bacarığı;
- öz təhsilinə məsuliyyətli yanaşma bacarığı;
- başqalarıyla əməkdaşlıq şəraitində işləmək bacarığı;
- şagirdlərin təhsil keyfiyyətlərinin yüksəlməsi;
- həyat boyu öyrənmə arzusu və bacarığı.

Tənqidi düşünmə texnologiyasının müəllimə verdiyi xüsusiyyətlər:

- sinifdə şəffaf və məsuliyyətli əməkdaşlıq mühitinin yaradılması bacarığı;
- tədris prosesində şagirdlərin müstəqilliyinə və tənqidi düşünmə bacarığının inkişafına əsas yaradan tədris modelindən istifadə imkanları;
- öz fəaliyyətini düzgün şəkildə təhlil etmək bacarığı;
- başqa həmkarları üçün etibarlı informasiya mənbəyi olmaq.

Nəzərə alsaq ki, ingilis dili dünyanın ən qabaqcıl dilidir və müxtəlif məqsədlər üçün aparılan danışıqların çoxu bu dildə aparılır, haqlı olaraq müasir kurrikulumun başlıca tələbi şagirdlərdə ingilis dilində tənqidi düşünmə bacarığını formalaşdırmaqdır. Lakin təəssüf ki, ənənəvi tədris metoduna sadiqlik şagirdləri passiv dinləyiciyə çevirir və onlardakı bu potensialın üzə çıxmağına mane olur. Şagirdlərin gələcək təhsillərindəki irəliləyişlərini izləmək və təhlil etmək, qlobal problemlərin həll yollarını tapmaq, zehni və məntiqi əməliyyatların öhdəsindən gəlmək, verilmiş vəziyyəti dərk etmək və nəticəyə gəlmək kimi vərdişlərinin əsası uşaqlıqdan qoyulmalıdır. Sürətlə dəyişən dünyanın tempini tutmaq, hadisələrə dərhal

reaksiya vermək, problemlərə düzgün həll yolları tapmaaq tənqidi təfəkkürün inkişafını labüd edir.

Tənqidi düşüncə şagirdlərin müstəqil öyrənməsini sürətləndirir, xarici dilin mənimsənilməsini daha da asanlaşdırır. Sinif diskussiyaları, debatlar, onlayn forumlar, yazı nümunələrinin hazırlanması, layihə işləri, sorğuların aparılması və s. kimi fəaliyyət növləri tənqidi təfəkkürün formalaşması və inkişafında əvəzsiz rol oynayır.

“Cluster”, “I know, I’d like to know, I’ve known”, “Thick and thin questions”, “Catch the mistake”, “Odd one out”, “Fact or opinion” və s. kimi oyunlar və tapşırıqlar tənqidi təfəkkürü inkişaf etdirən tapşırıqlardır.

Tədris prosesində əhatəli şəkildə tətbiq olunmalı tənqidi düşüncəni inkişaf etdirən texnologiyalar şəxsiyyətyönümlüdür və özündə əməkdaşlıq, yaradıcılıq və proyekt işlərini ehtiva edir:

- iş şagirdlərin fərdi xüsusiyyətləri əsasında həyata keçirilir;
- müəllim adətən koordinator rolundadır;
- dialoq, həllərin tapılmasında əməkdaşlıq və əsaslı kommunikativ tədris prosesi;
- əsas məqsəd daha çox bilik əldə etmək deyil, qazanılmış biliyin real həyatda tətbiq edilməsidir;
- yeni biliklər şagirdlərin aktiv axtarışları, fərziyyələri, analizləri və gəldikləri nəticə hesabına yaranır.

Tənqidi düşüncənin tətbiqi texnologiyasının aşağıdakı mərhələlərini fərqləndirmək olar:

**1.“Çağırış” (evocation) mərhələsi:**

Şagirdlər tədris prosesinin passiv tərəfidirlər. Dərsin məqsəd və məğzini həmişə müəllimdən eşitmək darıxdırıcıdır. İngilis dilinin tənqidi düşünmə texnikası ilə tədrisi zamanı müəllim şagirdlərlə keçilmiş materialı təhlil edir və dərsin əsas məqsədinin təyin edilməsi məsuliyyəti uşaqlara verilir. Bu yolla şagirdlərdə dərsə qarşı maraq oyadılır.

Şagirdlər səhv etməkdən qorxmayaraq öz düşüncələrini sərbəst ifadə etməlidirlər. Dərs müddəti individual və qrup işləri təşkil edilməlidir. Fərdi iş zamanı şagird öz biliyini mühakimə edir, qrup işi zamanı isə yeni ideya və biliklər qəbul edirlər. Müzakirələrin nəticəsi sxem, qrafik, şəkil və s. şəklində öz əksini tapmalıdır. Şagirdlər növbəti mərhələ üçün qarşılarına sual qoyurlar: Başqa nə öyrənməliyəm və bu mənə niyə lazımdır?

2.**“Mənanın dərk edilməsi” (realization of meaning) mərhələsi:**

Bu mərhələdə müəllim şagirdlərə material təqdim edir. İşin təşkili hekayə, müzakirə, mühazirə, video material, individual, cütlük və ya qrup şəklində ola bilər. Şagirdlər qarşıya qoyulmuş suallara cavab tapmaq üçün təqdim edilmiş materialı təhlil edir, yeni informasiya ilə tanışlıq prosesini özləri kontrol etməyə çalışırlar.

Müəllim şagirdlərə sərbəst işləməyə imkan yaradır, lakin ehtiyac yaranarsa onlara istiqamət verir.

**3."Əksetdirmə" (reflection) mərhələsi:**

Burada şagirdlər aldıqları yeni məlumatı əvvəlki bilikləri ilə müqayisə edir, mövzudan nəticələr çıxarır, sistemləşdirir və qiymətləndirirlər. Yoldaşları ilə müzakirə zamanı öz düşüncə və fərziyyələrini söylədikləri kimi başqalarının da ideyalarını qəbul etməyi öyrənirlər. Qarşılarına yeni suallar qoyur, biliklərindəki boşluqları təyin edir və gələcək dərslər üçün zəmin yaradırlar.

*Dewey, J.,& Bento, J.,* Activating children's thinking skills (ACTS): The effects of an infusion approach to teaching thinking in primary schools -British Journal of Educational Psychology, 2009

*Korkmaz Ö.,* Öğretmenlerin eleştirel düşünme eğilim ve düzeyleri -Ahi Evran Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi, 2009

*Q.M.Uayzer.,* Xarici dilin tədrisi metodikası-Moskva, 1974

*Beumont, J.,* A sequence of critical thinking tasks- TESOL Journal, 2010

*Fisher, A.,* Critical thinking: An introduction - UK, Cambridge University Press

*Elias, M.J., & Kress, J.S.,* Social decision-making and life skills development: A critical thinking approach to health promotion in the middle school -Journal of school health, 1994

**Лала Мирзаева**

**Способы развития критического и креативного мышления при обучении английскому языку**

**Резюме**

В эпоху, когда доминируют современные технологии, удивить общество становится очень сложно. Технологическое общество движется в направлении передачи рутинных мыслительных процессов компьютерам и машинам, и от людей требуется более продуктивное и креативное мышление. Обладание всесторонними знаниями не приносит вреда, однако в современную эпоху любая информация становится доступной с помощью машин и компьютеров, поэтому от людей ожидается не столько быть осведомлёнными, сколько обладать другими способностями — находить и создавать идеи. Неоспорим тот факт, насколько важно с помощью креативного мышления создавать инновационные идеи, а на следующем этапе — с помощью критического мышления анализировать и оценивать их практичность и реальность, формируя навык и умение делать выводы. Решение, принятое на основе критического анализа, никогда не может быть нелогичным или необоснованным.

**Ключевые слова:** преподавание английского языка, креативное мышление, критическое мышление, аналитическое мышление, навыки решения проблем

**Lala Mirzayeva**

**Ways to develop critical and creative thinking in English language teaching**

**Summary**

In an era dominated by modern technology, it's very difficult to surprise society. Technological society is moving towards delegating routine thinking processes to computers and machines, and people are required to think more productively and creatively. While being knowledgeable in all areas isn't harmful, in modern times any information becomes accessible through machines and computers, so people are expected not just to be knowledgeable, but to acquire different abilities – to find and create ideas. It's an undeniable fact how important it is to create innovative ideas through creative thinking and then analyze and judge the practicality and reality of this idea through critical thinking to reach a conclusion. A decision made through critical thinking analysis can never be illogical or unfounded.

**Keywords:** English language teaching, creative thinking, critical thinking, analytical thinking, problem-solving skills

**Rəyçi: Ped.f.d. Şükürova Fəridə Şahlar qızı**